**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№355/2** **13 aprel 2023-ci il**

**Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən 2022-ci il üzrə auditor xidməti göstərilməsinə dair hesabat barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü il üzrə iş planının 1.4-cü "Auditor təşkilatları və sərbəst auditorların hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması" bəndinin icrasını təmin etmək məqsədilə, Palatanın Auditin təşkili və hesabatlılıq idarəsi (V.Cavadov) tərəfindən hazırlanmış "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən 2022-ci il üzrə auditor xidməti göstərilməsinə dair hesabat"ı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən 2022-ci il üzrə auditor xidməti göstərilməsinə dair hesabat" nəzərə alınsın (əlavə olunur).

2. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki:

2.1. auditor xidmətləri göstərilərkən Beynəlxalq Audit Standartlarının və yerli qanunvericiliyin tələblərinə ciddi riayət edilsin;

2.2. auditor xidməti bazarında xidmət haqqı məbləğlərini aşağı salmaqla Auditorlar Palatasının digər üzvlərinə qarşı haqsız rəqabətə, dempinq hallarına yol verilməsinin və keyfiyyətsiz auditor xidməti göstərilməsinin qarşısının alınması məqsədi ilə Auditorlar Palatasının üzvləri tərəfindən imzalanmış Partnyorluq Sazişinin müddəalarına riayət edilsin;

2.3. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn vəzifələrin icrasına xüsusi diqqət yetirilsin.

3. Auditorlar Palatasının Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki:

3.1. 2022-ci il üzrə göstərilmiş auditor xidmətinin orta müqavilə məbləğinin adları aşağıda qeyd olunan auditor təşkilatları və sərbəst auditorlar tərəfindən azalması qeyri-qənaətbəxş hal kimi qiymətləndirilsin və onlardan bu halların aradan qaldırılması tələb edilsin:

- "Accountal Finans Biznes Konsaltinq" MMC (direktor - Əliyev Ürfət);
- "Accept- Audit" (direktor - Tarverdiyev Əli);
- "Ason Audit" MMC (direktor - Vəkilov Orxan);
- "Azəri Audit Servis" MMC (direktor - Rzayev Elvin);
- "İ and H Partners Financial Audit" MMC (direktor - Hüseynov Elmir);
- "Enemay Audit and Tax" MMC (direktor - Dövlətov İlkin);
- "M and J Accuracy Consultinq" (direktor - Cəfərov Elçin);
- "RM Audit" MMC (Miriyev Rasət);
- "SME Audit" MMC (direktor - Mirzəyev Təbriz);
- "Şəfəq Audit Konsaitinq" (direktor - Ağayev Akif);
- Alıyev Köçəri - sərbəst auditor;
- Bayramov Vəli - sərbəst auditor;
- Əhmədov Hafiz - sərbəst auditor;
- Hüseynov Şəmşinur - sərbəst auditor.

3.2. 2022-ci il üzrə göstərilmiş auditor xidmətinin orta müqavilə məbləğinin adları aşağıda qeyd olunan auditor təşkilatları və sərbəst auditorlar tərəfindən artması müsbət hal kimi qiymətləndirilsin və onlara təşəkkür elan edilsin:

- "Alfa-Audit" QSC (direktor - Musayev Vəli);
- "Baker Tilly Audit Azərbaycan" QSC (direktor - Həsənov Şahin);
- "Caspian Bizness Consultants" MMC (direktor - Həsənov Rauf);
- "L.B.Audit xidməti" MMC (direktor - Bayramova Lamiyə);
- "NZA Audit" MMC (direktor - Axundov Nihad);
- "Smart Audit" QSC (direktor - Məmmədov Emil);
- Axundov Nazim - sərbəst auditor;
- Kərimov Şamxal - sərbəst auditor;
- Fətiyev Üzeyir - sərbəst auditor;
- Mustafayev Elşən - sərbəst auditor.

3.3. 2022-ci ildə bağlanmış, lakin yerinə yetirilməmiş müqavilələrin təhlili aparılsın və bir ay müddətində nəticələri barədə Palatanın rəhbərliyinə məlumat verilsin.

3.4. 2022-ci ilin yekunu üzrə auditdən keçmə səviyyəsi aşağı olan məcburi audit subyektləri (məhdud məsuliyyətli cəmiyyətlər üzrə 45,7%, səhmdar cəmiyyətləri üzrə 53,2%, bələdiyyələr üzrə 37,1% və siyasi partiyalar üzrə 65,4%) barədə dəqiqləşdirilmə aparılsın və bir ay müddətində müvafiq məlumatların aidiyyəti qurumlara göndərilməsi təmin edilsin.

4. Auditorlar Palatası Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlər"inə riayət etməyən auditor təşkilatlarının rəhbərlərinin və sərbəst auditorların nəzərlərinə çatdırılsın ki, gələcəkdə belə hallara təkrar yol verildiyi təqdirdə barələrində daha ciddi intizam tədbirləri həyata keçiriləcəkdir.

5. Auditorlar Palatasının Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli), Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) və Palatanın Şurası yanında Haqsız rəqabətə qarşı mübarizə üzrə komitəyə (Q.Əhmədov) tapşırılsın ki, Auditorlar Palatası tərəfindən haqsız rəqabətə qarşı mübarizəyə dair qəbul edilmiş metodik göstərişlərə və təlimatlara Palatanın üzvləri tərəfindən ciddi riayət edilməsinə nəzarət edilsin və auditor xidməti bazarında haqsız rəqabətə yol verən auditorlara qarşı təsirli və çevik tədbirlərin görülməsi, bu sahədə hüquq pozuntularının profilaktikası və aradan qaldırılması üzrə tədbirlərin həyata keçirilməsi təmin edilsin.

6. Bu qərarın mətni Palatanın internet səhifəsində və "Auditorun şəxsi kabineti" sistemində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**